Azərbaycan Respublikası ədliyyə
nazirinin 31.10.2007-ci il tarixli
39-T №-li əmri ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb baş idarəsi haqqında

# Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb baş idarəsi (bundan sonra – Baş idarə) Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müstəqil struktur qurumudur.

2. Baş İdarə öz fəaliyyətində Azərbaycan Respubikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, «Əhalinin sağlamlığının qorunması haqqında» və «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə»ni, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş «Hərbi-həkim ekspertizası haqqında Əsasnamə»ni Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Ədliyyə Nazirliyinin (bundan sonra – Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, Səhiyyə Nazirliyinin müvafiq normativ sənədlərini, habelə bu Əsasnaməni rəhbər tutur.

3. Baş idarə fəaliyyətini dövlət orqanları, Penitensiar xidmət və Nazirliyin sisteminə daxil olan digər qurumlarla əlaqəli həyata keçirir.

4. Baş idarə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, digər möhürlərə, ştamplara və blanklara malikdir.

5. Baş idarənin fəaliyyəti və saxlanma xərcləri Azərbaycan Respublikasının dövlət büdcəsi və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

## II. Baş idarənin fəaliyyət istiqamətləri

6. Baş idarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

6.1. ədliyyə orqanlarının işçilərinə və onların ailə üzvlərinə, Nazirliyin Penitensiar xidmətində müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçulara, ədliyyə pensiyaçılarına tibb xidmətinin göstərilməsini təmin edir;

6.2. Nazirliyin penitensiar müəssisələrində saxlanılan məhkumlara və təqsirləndirilən şəxslərə tibb xidmətinin göstərilməsini təmin edir;

6.3. Nazirliyin sisteminə daxil olan qurumlarda idarə sanitariya nəzarətini həyata keçirir;

6.4. Nazirlik üzrə verilmiş əmrlə və müqavilə ilə müəyyənləşdirilmiş digər kontingentə tibbi yardım göstərir;

6.5. səhiyyə maarifləndirməsini həyata keçirir, sağlam həyat tərzini, sağlamlıq mədəniyyətini təbliğ edir;

6.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Baş idarənin vəzifələri

7. Baş idarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

7.1. Nazirliyin sistemində tibb xidmətini təşkil etmək;

7.2. ədliyyə orqanlarının işçilərinin və onların ailə üzvlərinin, Nazirliyin Penitensiar xidmətində müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçuların, ədliyyə pensiyaçılarının sağlamlığının mühafizəsi istiqamətində kompleks profilaktika, müayinə, müalicə, maarifləndirmə, bərpa-sağlamlaşdırıcı və digər tibbi tədbirləri həyata keçirmək;

7.3. Nazirliyin penitensiar müəssisələrində saxlanılan məhkumların və təqsirləndirilən şəxslərin sağlamlığının mühafizəsi istiqamətində kompleks profilaktika, müayinə, müalicə, maarifləndirmə, bərpa-sağlamlaşdırıcı və digər tibbi tədbirləri həyata keçirmək;

7.4. Nazirlik üzrə verilmiş əmr və müqavilə ilə müəyyənləşdirilmiş kontingentin sağlamılığının mühafizəsi istiqamətində kompleks profilaktika, müayinə, müalicə, maarifləndirmə, bərpa-sağlamlaşdırıcı və digər tibbi tədbirləri həyata keçirmək;

7.5. qanunvericiliyə uyğun olaraq Nazirliyin obyektlərində sanitariya-epidemioloji salamatlığın təmin edilməsinə idarə sanitariya nəzarətini həyata keçirmək;

7.6. ədliyyə orqanlarına xüsusi rütbələr nəzərdə tutulan vəzifələrə qulluğa qəbul edilən və həmin vəzifələrdə qulluq keçən işçilərin, hərbi qulluqçuların hərbi-həkim ekspertizasının keçirilməsini və şəhadətləndirilməsini təşkil etmək;

7.7. ədliyyə orqanlarında xüsusi rütbələr nəzərdə tutulmayan dövlət qulluqçusu vəzifələrinə işə qəbul edilən və vəzifələrdə

çalışan işçilərin sağlamlığının yoxlanılmasını və şəhadətləndirilməsini təşkil etmək;

7.8. hakim və notarius vəzifəsinə namizədlərin sağlamlığını yoxlamaq;

7.9. ədliyyə orqanları işçilərinə müalicə olunmaları ilə əlaqədar verilən müavinətin ödənilməsi ilə bağlı müvafiq rəy verilməsini təşkil etmək;

7.10. xidmət göstərilən kontingent arasında sanitariya maarifçiliyi və xəstəliklərin profilaktikası işini təşkil etmək;

7.11. stasionar müalicəyə və xüsusi müayinəyə ehtiyacı olan məhkumların və təqsirləndirilən şəxslərin müvafiq qaydada müalicə müəssisələrinə göndərilməsini təmin etmək;

7.12. penitensiar müəssisələrin xüsusiyyətləri nəzərə alınmaqla, ayrı-ayrı xəstəliklər üzrə müayinə və müalicə standartlarını tətbiq etmək;

7.13. qanunvericiliyə uyğun olaraq, psixi və sair ağır xəstəliklərə tutulmuş məhkumların Xüsusi Həkim Ekspert Komissiyası (XHEK) vasitəsilə şəhadətləndirilməsini həyata keçirmək, onların cəza çəkməkdən azad olunmaları, yaxud məcburi müalicəyə göndərilmələrinə, habelə müvafiq sorğular əsasında təqsirləndirilən şəxslərin ağır xəstəliklə əlaqədar həbsdə saxlanılmalarının mümkünlüyünə dair rəy vermək;

7.14. penitensiar müəssisələrdə saxlanılan və əmək qabiliyyətini itirmiş şəxslərin əmək qabiliyyətinin itirilmə dərəcəsinin təyin edilməsi məqsədilə tədbirlər görmək;

7.15. xəstə və dispanser qeydiyyatında olan məhkumların və təqsirləndirilən şəxslərin rejim, əməliyyat, məhkəmə-istintaq hərəkətləri və sair baxımdan yerdəyişmələri, yaxud saxlanma

şəraitinin sərtləşdirilməsi ilə əlaqədar onların sağlamlıq vəziyyəti barədə rəy vermək;

7.16. yoluxucu və digər xəstəliklərin qarşısını almaq, onları törədən səbəbləri aradan qaldırmaq məqsədi ilə Nazirliyin sisteminə daxil olan digər qurumları məlumatlandırmaq;

7.17. Baş idarənin strukturuna daxil olan tibb müəssisələrinin fəaliyyətini təşkil etmək, onlara təşkilati-metodiki rəhbərliyi və nəzarəti həyata keçirmək, tibb xidmətinə dair təlimatlar, metodik tövsiyələr və göstərişlər işləyib hazırlamaq;

7.18. tibb xidməti işçilərinin nəzəri və peşə hazırlıgının səviyyəsinin artırılması məqsədilə onları təkmilləşdirmə kurslarına, treninqlərə cəlb etmək, habelə digər müvafiq tədbirlər görmək;

7.19. Baş idarənin strukturuna daxil olan qurumlarda işçilər tərəfindən əmək funksiyalarının icra olunmasına nəzarət etmək;

7.20. Baş idarənin strukturuna daxil olan tibb müəssisələrinin təmir-tikintisi ilə bağlı işlər görmək;

7.21. Baş idarənin strukturuna daxil olan tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların fəaliyyəti üçün zəruri şəraitin yaradılması, maliyyə və digər təminat ilə bağlı tədbirlər həyata keçirmək;

7.22. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.23. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, onun tətbiqi ilə bağlı müvafiq təkliflər vermək, habelə bu təcrübə nəzərə alınmaqla, elmi-texniki nailiyyətlərin tətbiq olunmasını təmin etmək;

7.24. tibb sahəsində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi işinin təşkilini həyata keçirmək;

7.25. Baş idarəyə ayrılan büdcə və qanunvericiliklə nəzərdə tutulmuş digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

7.26. Baş idarənin strukturuna daxil olan qurumlardan statistik hesabatları toplamaq, ümumiləşdirmək və təhlil etmək;

7.27. fəaliyyət istiqamətləri üzrə dövri və digər hesabatları hazırlamaq və aydiyyəti üzrə təqdim etmək;

7.28. Baş idarədə karğüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını və məxfilik rejiminə əməl olunmasını təmin etmək;

7.29. vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılmasını və onların qəbulunu təmin etmək, daxil olmuş müraciətlərə vaxtında, o cümlədən yaradılmış internet saytı vasitəsilə cavab vermək və qanunvericiliklə müəyyən edilmiş qaydada digər tədbirlər görmək;

7.30. öz fəaliyyəti haqqında ictimai maraq kəsb edən məlumatların kütləvi informasiya vasitələrində yayılmasını təşkil etmək;

7.31. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

## IV. Baş idarənin hüquqları

8. Baş idarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

8.1. tibb xidməti üzrə metodiki tövsiyələr və göstərişlər işləyib hazırlamaq, müasir müalicə-diaqnostika standartlarını tətbiq etmək;

8.2. təbabətin aktual məsələlərinə həsr olunmuş kliniki müzakirələr və elmi-praktik konfranslar keçirmək və onlarda iştirak etmək;

8.3. tibb sahəsində mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün tədbirlər görmək, Baş idarənin ehtiyaclarını nəzərə alaraq tibb təhsil müəssisələrinin məzunlarının diplomdan sonrakı hazırlığını aparmaq;

8.4. məhkumların ölüm hallarının müzakirəsini keçirmək və patoloji-anatomik paralellər aparmaq;

8.5. Nazirliyin obyektlərində sanitariya-epidemioloji salamatlığın təmin edilməsinə idarə sanitariya nəzarətini həyata keçirilməsi ilə bağlı qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlərdən istifadə etmək;

8.6. müəyyən olunmuş qaydada digər tibb müəssisələrindən həkim-mütəxəssisləri dəvət etmək;

8.7. Baş idarənin strukturuna daxil olan qurumların fəaliyyətini yoxlamaq;

8.8. fəaliyyət istiqamətləri üzrə işin təmin edilməsi və təkmilləşdirilməsi məqsədilə Səhiyyə Nazirliyi və onun qurumları ilə əməkdaşlıq etmək;

8.9. verilmiş səlahiyyət daxilində kadr məsələlərini həll etmək;

8.10. qanunvericiliklə müəyyən edilmiş qaydada yerli və xarici qeyri-dövlət təşkilatları, beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

8.11. fəaliyyət istiqamətlərinə uyğun rəylər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, müsbət təcrübəni yaymaq, analitik materiallar hazırlamaq, müvafiq təkliflər vermək;

8.12. tibb sahəsinə aid olan qanunvericilik aktlarının layihələrinə rəy verilməsində iştirak etmək, müvafiq normativ hüquqi aktların layihələrini hazırlamaq;

8.13. tibb sahəsini tənzimləyən normativ hüquqi aktların yeni qəbul olunmuş qanunvericiliyə uyğunlaşdırılması barədə təkliflərin hazırlanmasında iştirak etmək;

8.14. müəyyən edilmiş qaydada işçiləri ezamiyyətə göndərmək;

8.15. Nazirliyin sisteminə daxil olan qurumlara, digər dövlət orqanlarına və təşkilatlara sorğular vermək, onlardan məlumatlar almaq;

8.16. verilmiş səlahiyyət daxilində və qanunvericiliklə müəyyən edilmiş qaydada sərəncamında olan dövlət əmlakı barəsində hüquqları həyata keçirmək;

8.17. qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət satınalmalarını həyata keçirmək;

8.18. Baş idarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işlərin təkmilləşdirilməsinə dair təkliflər vermək;

8.19. Baş idarə işçilərinin əmək, sosial-məişət şəraitinin, maddi təminatının yaxşılaşdırılması məqsədilə tədbirlər görmək;

8.20. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## V. Baş idarənin fəaliyyətinin təşkili

9. Baş idarənin strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq olunur.

10. Baş idarəyə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə

yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

11. Baş idarənin rəisinin Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Baş idarənin rəis müavinləri onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

12. Baş idarənin rəis müavinləri və işçiləri öz funksiyalarını vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

13. Baş idarə işini fəaliyyət istiqamətləri, habelə Nazirliyin və Baş idarənin iş planları əsasında həyata keçirir.

14. Baş idarədə işin təşkili və vəziyyəti, iş planlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, qarşıda duran vəzifələrin həyata keçirilməsi ilə əlaqədar məsələlər mütəmadi olaraq Baş idarə rəisinin yanında keçirilən iclaslarda müzakirə edilir.

15. Baş idarədə onun rəisindən (sədr), rəis müavinlərindən və digər rəhbər işçilərdən ibarət məşvərətçi kollegial orqan – Tibbi Şura yaradılır. Tibbi Şuranın üzvlərinin sayı və fərdi tərkibi, habelə iş qaydası Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən müəyyən edilir.

16. Tibbi Şura:

16.1. penitensiar müəssisələrin xüsusiyyətləri nəzərə alınmaqla, ayrı-ayrı xəstəliklər üzrə müayinə və müalicə standartlarının tətbiq edilməsinə razılıq verir;

16.2. tibb xidməti üzrə təlimatları, metodik tövsiyələri və göstərişləri təsdiq edir, yeni müalicə-diaqnostika standartlarının tətbiq edilməsinə razılıq verir;

16.3. Baş idarənin strukturuna daxil olan tibb müəssisələrində aparılan müalicə-profilaktika və sanitar-əksepidemik fəaliyyətin

keyfiyyət və səmərəsini öyrənir, bu fəaliyyətin təkmilləşdirilməsi istiqamətində müzakirələri təşkil edir;

16.4. qüsursuz və nümunəvi fəaliyyət göstərən tibb müəssisələrinin öyrənilməsi və digər müəssisələrdə tətbiq edilməsi məsələsinə baxır;

16.5. Baş idarənin strukturuna daxil olan tibb müəssisələrinin dövri hesabatlarına dair dinləmələr keçirir və onların fəaliyyətinə qiymət verir;

16.6. işində ciddi nöqsanlar aşkar edilmiş ayrı-ayrı tibb işçilərinin fəaliyyətini müzakirə edir, nəticəsindən asılı olaraq onlar barəsində qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin görülməsi barədə tövsiyə verir;

16.7. təbabətin aktual məsələlərinə həsr olunmuş kliniki müzakirələrin və elmi-praktik konfransların mövzularını müəyyən edir;

16.8. klinik diaqnostikasında çətinlik və tərəddüdlərlə qarşılanmış xəstəliklər nəticəsində baş vermiş, klinik və patoloji-anotomik diaqnozlarda ciddi uyğunsuzluq olan və mübahisə doğuran ölüm hadisələrini və bununla bağlı tibb işçilərinin fəaliyyətini müzakirə edir, nəticəsində asılı olaraq müvafiq tövsiyələr verir;

16.9. Baş idarənin iş planını və onun icrası vəziyyətini müzakirə edir;

16.10. Baş idarənin fəaliyyət istiqamətləri üzrə ayrı-ayrı aktual məsələləri müzakirə edir.

17. Tibbi Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Tibbi Şuranın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Tibbi Şura qərar qəbul edilərkən

səslər bərabər olarsa, Tibbi Şuranın sədrinin səsi həlledici hesab edilir.

18. Tibbi Şuranın qərarları protokolla rəsmiləşdirilir və sədr tərəfindən təsdiq edilir.

19. Tibbi Şuranın iclasları Baş idarənin rəisi tərəfindən mütəmadi olaraq çağırılır.

20. Tibbi Şuranın qərarlarının icrası üzrə əmrlər verilə bilər.

21. Baş idarədə onun rəisindən (sədr) və həkim-mütəxəssislərindən ibarət Xüsusi Həkim Ekspert Komissiyası yaradılır. Komissiyanın tərkibinə habelə Səhiyyə Nazirliyinin mütəxəssisləri daxil edilə bilər. Xüsusi Həkim Ekspert Komissiyasının üzvlərinin sayı və fərdi tərkibi, habelə fəaliyyətinin hüquqi əsasları Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən müəyyən edilir.

22. Baş idarənin rəisi:

22.1. Baş idarənin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi həyata keçirir;

22.2. müavinləri arasında vəzifə və iş bölgüsü aparır, Baş idarənin digər vəzifəli şəxslərinin həvalə edilmiş sahələr üzrə səlahiyyətini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

22.3. Baş idarənin strukturuna daxil olan qurumların vəzifə təlimatlarını təsdiq edir, onların fəaliyyətinə nəzarəti təşkil edir və işinin əlaqələndirilməsini təmin edir, müvafiq yoxlamalar və təftişlər təyin edir;

22.4. Baş idarənin iş planını təsdiq edir, onun vaxtında və keyfiyyətli icrasına nəzarəti həyata keçirir,

22.5. Baş idarənin fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlarla əlaqələndirir;

22.6. Baş idarənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

22.7. Nazirliyin iş planında və kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

22.8. Baş idarənin və onun strukturuna daxil olan qurumların fəaliyyətinə işçiləri tərəfindən vəzifələrinin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

22.9. müəyyən edilmiş struktur, işçilərin say həddi və ayrılmış büdcə təxsisatı daxilində Baş idarənin aparatının və strukturuna daxil olan digər qurumların xərclər smetasına dair təkliflər verir;

22.10. Baş idarənin fəaliyyətinin, ştat və strukturunun təkmilləşdirilməsinə, Tibbi Şuranın və Xüsusi Həkim Ekspert Komissiyasının tərkibinə dair Azərbaycan Respublikasının ədliyyə nazirinə təkliflərlər verir, Baş idarənin və müalicə müəssisələrinin müvafiq komissiyalarının tərkibini təsdiq edir;

22.11. verilmiş səlahiyyət daxilində kadr məsələlərinin həll edir;

22.12. Baş idarədə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və dövlət qulluğunun ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq edilməsi və vəzifədən kənarlaşdırılması barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

22.13. dövlət büdcəsindən ayrılan vəsaitlərin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına əlavələr, o cümlədən qulluq stajına, xüsüsi rütbələrə və ixtisas dərəcələrinə görə əlavələrin, maddi yardımın və mükafatların verilməsini təmin edir;

22.14. dövlət büdcəsindən ayrılmış vəsait və ştat sayı hüdudlarında tabeliyində olan qurumların yaradılması, yenidən təşkili və ləğv edilməsi, habelə yeni ştat vahidlərinin ayrılması barədə Azərbaycan Respublikasının ədliyyə nazirinə təkliflər verir;

22.15. Baş idarənin strukturuna daxil olan qurumların vəzifəli şəxslərinin qanunvericiliyə zidd qərarlarını ləğv edir;

22.16. səlahiyyətləri daxilində korrupsiyaya və maraqlar toqquşmasına qarşı tədbirlər görür;

22.17. səlahiyyətləri daxilində icrası məcburi olan əmr, sərəncam və yazılı göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

22.18. səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini müavinlərinə tapşırır;

22.19. vətəndaşları qəbul edir, Baş idarədə vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir;

22.20. Baş idarədə karqüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını və məxfilik rejiminə riayət olunmasını təmin edir;

22.21. Baş idarənin aparatının strukturuna daxil olan qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

22.22. qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət satınalmalarının həyata keçirlməsini üçün tədbirlər görür, dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə və səmərəli xərclənməsini təmin edir;

22.23. səlahiyyətləri daxilində digər məsələləri həll edir;

22.24. xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir.

23. Baş idarənin rəis müavinləri:

23.1. vəzifə bölgüsü ilə onlara həvalə edilmiş xidmət sahələrinin fəaliyyətinə görə məsuliyyət daşıyırlar;

23.2. Baş idarənin strukturuna daxil olan tibbi qurumlarda həyata keçirilən müalicə-profilaktika işinə nəzarət edir;

23.3. müvafiq xidmət sahələrinin fəaliyyətinə, habelə Baş idarənin işçilərinin icraatında olan sənədlərin düzgün və vaxtında icra olunmasına nəzarət edirlər;

23.4. vətəndaşların qəbulunu keçirirlər;

23.5. həvalə edilmiş xidmət sahələri üzrə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Baş idarənin rəisinə təkliflər verirlər;

23.6. Baş idarənin işçilərini cəlb etməklə ümumiləşdirmələr aparır, statistik və digər hesabatları hazırlayır və Baş idarə rəisinə təqdim edir;

23.7. Baş idarənin rəisi vəzifəsini icra edə bilmədikdə Azərbaycan Respublikasının ədliyyə nazirinin tapşırığına əsasən onun vəzifələrini yerinə yetirirlər;

23.8. peşə hazırlığının yüksədilməsi məqsədilə tibb elmini daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

23.9. xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin və Baş idarənin rəisinin tapşırıqlarını yerinə yetirirlər.